# SOCAR-AQŞ XXII Beynəlxalq Xəzər Neft və Qaz konfransında iştirak etmişdir




SOCAR-AQŞ-nin Mətbuat Xidmətindən verilən məlumata görə, iyunun 3-4-də Bakıda Xəzəryanı regionun enerji sektorunun ən böyük tədbiri - XXII Beynəlxalq "Xəzər Neft və Qaz" konfransı keçirilmişdir. Konfransda 30 ölkədən 500-dən çox nümayəndənin iştirak etməsi həm mütəxəssislər, həm də bütövlükdə neft-qaz sənayesi üçün böyük əhəmiyyət kəsb edir.

Konfransın ikinci günündə çıxış edən SOCAR-AQŞ-nin Baş direktoru Ramin İsayev SOCAR-AQŞ MMC-nin "Günəşli" yatağının dayazsulu hissəsində müasir texnika, yeni texnologiya, standartlar və yanaşma tətbiq etməklə qazma sahəsində əldə etdiyi uğurlara dair geniş məruzə ilə çıxış etmişdir. R. İsayev bildirib ki, ölkə üçün əhəmiyyətli "Ümid" və "Bulla" kimi yüksək təzyiqli qaz yataqlarında yeni nəsil qazma qurğularından istifadə etməklə köhnə yataqların məhsuldarlığını yüksəltməyə nail olmaq olar. "Əvvəlki yataqlarla müqayisədə "Ümid" və "Bulla" yüksək təzyiqli qaz yataqlarıdır, üstəlik qazılacaq quyular dərin, quyu konstruksiyası mürəkkəb və hidravlik yarılma ilə məsamə təzyiqi arasında fərq çox azdır. Bu kimi yataqlarda nəinki yeni avadanlıqlardan istifadə etməyi, həmçinin bu avadanlıqları işlətməyi bacaran peşəkar kadrlara böyük ehtiyac var".




Məruzənin sonunda Baş direktor beynəlxalq neft sənayesi müəssisələrini dərin sularda, dərin rezervuarlarda qazma işlərini həyata keçirmək və köhnə yataqlarda laylardan neftvermə əmsalını artırmaq üçün əməkdaşlığa dəvət etdi.

Xatırladaq ki, SOCAR-AQŞ 3-5 iyun tarixində keçirilmiş XXII "Xəzər Beynəlxalq Neft və Qaz" konfransının Bürünc sponsorlarından biridir.

**M.MİRZƏ,**
**"Respublika".**